# Prezident İlham ƏLİYEV:
# Biz bütün işləri ardıcıllıqla edirik

## *Ölkə başçısı səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi istiqamətində addımlar atılacağını bildirdi*

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 1-də AzTV-yə müsahibəsində bir çox mühüm məqamlara toxunaraq, ölkəmizin qarşısında dayanmış strateji vəzifələrin yerinə yetirilməsi istiqamətində fəaliyyətin bundan sonra da davam etdiriləcəyini vurğuladı. Həmişə olduğu kimi, bu dəfə də ictimaiyyət tərəfindən çox müsbət qarşılanan müsahibəsində ölkə başçısı Azərbaycanın qlobal probleme çevrilmiş koronavirusla mübarizə sahəsində əldə etdiyi uğurlardan danışmaqla yanaşı, COVID-19 infeksiyasına qarşı vaksinasiya məsələsində inkişaf etmiş ölkələrin dünyanın kasıb ölkələrinə qarşı nümayiş etdirdiyi qeyri-adekvat münasibətin yolverilməz olduğunu da diqqətə çatdırdı. Bundan başqa, Prezident İlham Əliyev azad olunmuş ərazilərin bərpası ilə bağlı həyata keçirilən dövlət siyasətinə zidd məmur bəyanatlarının yolverilməz olduğunu bildirdi.***

Son illər Azərbaycanda müasir səhiyyə infrastrukturunun yaradılması istiqamətində mühüm işlər görülmüşdür. Ölkəmizdə səhiyyənin səviyyəsinin yüksəlməsi son elmi-texnoloji yeniliklərin tətbiqi sahəsində mümkün olmuşdur. Məhz pandemiya dövründə ölkə səhiyyəsinin yaranmış vəziyyətə çevik və adekvat reaksiya verməsi müsbət reallığı tam əks etdirir. Koronavirus pandemiyasının ilk vaxtlarından vətəndaşların sağlamlığının qorunması məqsədilə Prezident İlham Əliyevin rəhbərliyi ilə virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli preventiv tədbirlər həyata keçirilməyə başlanmışdır.

Ölkədə mövcud olan müasir laboratoriyaların sayını artırmaqla, son bir neçə ay ərzində koronavirusa görə aparılan testlərin də sayı xeyli çoxalmışdır. Bu gün adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Prezident İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında demişdir ki, yeni tikilmiş bu xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir: "Bildiyiniz kimi, son illərdə bir çox xəstəxanalar tikilib və onların da müəyyən standartları var, həm memarlıq baxımından, həm də avadanlıqlarla təchizat baxımından. Ona görə əminəm ki, bu xəstəxanada vətəndaşlara keyfiyyətli tibbi xidmət göstəriləcək. Çünki bütün müasir avadanlıqlar burada quraşdırılıb". Ölkə başçısı xüsusilə vurğulamışdır ki, xəstəxananın inşası dövlətin bu sahədəki fəaliyyətinin ardıcıl şəkildə davam etdirildiyini bir daha göstərir. Prezident İlham Əliyev son 17 il ərzində 750-dən çox xəstəxananın ya yenidən tikildiyini, ya da ki, əsaslı şəkildə təmir edildiyini diqqətə çatdırmışdır.

Azərbaycanda COVID-19 ilə mübarizədə əldə olunmuş nailiyyətlər Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də yüksək qiymətləndirilmiş, ölkəmiz bu mübarizədə nümunəvi dövlətlər siyahısına daxil edilmişdir. Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq bu sahədə maksimum səmərəli iş aparmaq üçün çalışıldığını vurğulayan Prezident İlham Əliyev qeyd etmişdir ki, artıq ÜST "Azərbaycan modeli" haqqında danışır, görülən işlərə yüksək qiymət verir, respublikamızı nümunəvi ölkə kimi təqdim etmişdir.

"Eyni zamanda, bu yaxınlarda mənə verilən məlumata görə, dünyanın aparıcı rəy sorğusu şirkəti olan "Gallup" da Azərbaycan vətəndaşları arasında təhlil-rəy sorğusu aparıb. Vətəndaşların 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir və bu göstəriciyə görə Azərbaycan dünyada 4-cü yerdədir", – deyən ölkə başçısı həm beynəlxalq təşkilatların, bu sahədə aparıcı təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatının, həm də ölkə əhalisinin dövlətin fəaliyyətini yüksək qiymətləndirdiyini diqqətə çatdırmışdır. Prezident İlham Əliyev şad olduğunu bildirmişdir ki, dövlətin bütün çağırışları vətəndaşlar tərəfindən də anlayışla qarşılandı: "Nəticə etibarilə həm dövlət siyasəti, həm vətəndaşların artan məsuliyyəti imkan verdi ki, bu gün vəziyyət nəzarət altındadır".

Bundan başqa, Qoşulmama Hərəkatına sədrlik edən bir ölkə kimi Azərbaycan bu dövr ərzində 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərmiş, eyni zamanda, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə vermişdir. Ölkəmiz 5 milyon dollar ümumi pandemiya ilə bağlı tədbirlərə, 5 milyon dollar isə Qoşulmama Hərəkatına üzv olan xüsusilə kasıb ölkələrin yardımına istiqamətləndirmişdir. Prezident İlham Əliyev müsahibəsində BMT Baş Assambleyasının xüsusi sessiyasında Qoşulmama Hərəkatının sədri kimi çıxış edərkən bütün ölkələri həmrəyliyə çağırdığını xatırlatmış və əlavə etmişdir ki, bu bəlaya qarşı mübarizədə biz səylərimizi birləşdirməliyik, burada hansısa birtərəfli addımlar atılmamalıdır, zəngin ölkələr məsuliyyət göstərməlidirlər.

Prezident İlham Əliyev müsahibəsində mühüm qlobal məsələyə də toxunmuşdur. COVID-19 infeksiyasına qarşı vaksinlərin ədalətli şəkildə paylanması prinsipial xarakter daşıyır. Ancaq görünən odur ki, hazırda vaksinlər kasıb ölkələr üçün əlçatan deyil. Ölkə başçısı birmənalı şəkildə bildirmişdir ki, peyvənd bütün ölkələrin xalqlarına çatmalıdır: "Hətta demişdim ki, kasıb olan ölkələrin vətəndaşları üçün zəngin olan ölkələr o peyvəndi alıb onlara ötürsünlər. Şirkətlərə də çağırışlar etmişdim ki, onlar da bu sahədə qazanc dalınca qaçmasınlar, yəni, məsuliyyətli olsunlar. Prinsipcə, mənim bu çağırışlarımı bir çox ölkələr dəstəklədi, amma əfsuslar olsun ki, real həyat bizə tam başqa mənzərə nümayiş etdirir. Burada sözlə əməl arasında böyük bir fərqi görürük".

Bundan başqa, Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri Azərbaycanın beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyini, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcəyini vurğulamışdır. Vaksinləmə prosesini müsbət qiymətləndirən ölkə başçısı əlavə etmişdir ki, Azərbaycan Cənubi Qafqazda ilk olaraq artıq vaksinasiya işlərinə start verdi. Eyni zamanda, yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Prezident İlham Əliyev həmçinin bildirmişdir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Azərbaycanın COVAKS təşəbbüsünün üzvü olduğunu bildirən Prezident İlham Əliyev COVAKSın xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyini də vurğulamışdır.

İkinci Qarabağ müharibəsində qazandığı şanlı Qələbə nəticəsində Azərbaycan ərazilərinin işğalına son qoydu və ərazi bütövlüyünü təmin etdi. İndi də əsas vəzifə bu ərazilərin bərpası və yenidən qurulmasıdır. Azərbaycan dövləti bu ərazilərin bərpasına xüsusi əhəmiyyət verir, bu istiqamətdə işlər artıq başlamışdır və infrastrukturun bərpası üçün fəal şəkildə çalışır. Azad olunmuş ərazilərdə bərpa işləri Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir, həmin ərazilərin bərpası strateji əhəmiyyətə malikdir. Eyni zamanda, bu ərazilərin bərpası dövlətimizin müəyyən etdiyi ardıcıllıqla həyata keçirilir. Ölkə başçısı AzTV-yə verdiyi müsahibədə dəfələrlə bu məsələni qaldırdı. Aydındır ki, işğaldan azad edilmiş ərazilər ilk növbədə minalardan təmizlənməlidir. Bununla yanaşı, düşmənin 30 il ərzində torpaqlarımıza vurduğu ziyanı araşdırıb qiymətləndirmək lazımdır. Yalnız bundan sonra bu ərazilərdə infrastruktur layihələrinin icrasına, sosial obyektlərin tikilməsinə və yaşayış şəraitinin yaradılmasına, evlərin tikintisinə başlanıla bilər. Eyni zamanda, Prezident İlham Əliyev azad edilmiş ərazilərdə xüsusi nümayəndə institutu vasitəsilə müasir idarəetmə forması yaratmışdır və artıq Şuşada xüsusi nümayəndə fəaliyyət göstərir.

Bu, bir aksiomdur ki, məmurlar ilə vətəndaşlar arasındakı münasibət hər ölkənin inkişafında mühüm rol oynayır. Vəzifəli şəxslər və vətəndaşlar arasında münasibətlərin şəffaflığı, vəzifəli şəxslər tərəfindən öz fəaliyyətində vətəndaş məmnunluğunun əsas məqsəd kimi müəyyən edilməsi həm ölkəmizin davamlı inkişafının təminatıdır, həm də sabitliyin möhkəmlənməsinə kömək edən mühüm amillərdən biri hesab olunur. Prezident İlham Əliyev məmurlarla vətəndaşlar arasında münasibətlərdə və insanlarla ünsiyyətdə öz şəxsi keyfiyyətlərinin və nümunəvi davranışının gözəl nümunəsi olmaqla yanaşı, dövlət qulluqçularından bunu tələb edir. Prezident vətəndaşlarla münasibətlərdə şəffaflığın artırılmasını, onlara daha keyfiyyətli, rahat, müasir xidmətlərin göstərilməsini və vətəndaşların məmnunluğunun təmin edilməsini məmurlar üçün ən vacib vəzifə kimi müəyyən etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, azad edilmiş torpaqların bərpası ilə bağlı ölkə başçısı tərəfindən bir çox önəmli qərarlar qəbul olunmuş və qərargah yaradılmışdır. Həmin qərargaha Prezident Administrasiyasının rəhbəri rəhbərlik edir. Ancaq təəssüf ki, bəzi dövlət strukturları, məmurlar razılaşma olmadan bəzi açıqlamalar vermiş, azad edilmiş ərazilərdə hansısa idarənin nümayəndəliyinin yaradılacağı barədə fikirlər səsləndirmişlər. Prezident İlham Əliyev çıxışında razılaşdırılmadan səsləndirilən fikirlərin yolverilməz olduğunu açıqlamışdır: "Bu, yolverilməzdir və qəbuledilməzdir. Ona görə burada subordinasiya olmalıdır. Ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özü üçün hansısa bir ofis, yeni ofis yaratmaq üçün belə açıqlamaların verilməsi tamamilə qəbuledilməzdir və buna son qoyulmalıdır".

Əlavə edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və komendantlıqların nəzdində aidiyyəti dövlət orqanlarının (qurumlarının), o cümlədən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılmışdır.

Aydındır ki, işğaldan azad olunmuş ərazilər kifayət qədər böyükdür. Şuşa şəhəri də daxil olmaqla, 6 rayon azad edilmişdir. Demək olar ki, Şuşa və bir neçə yaşayış məntəqəsi istisna olmaqla, qalan bütün ərazilərin həm sosial şərtləri, həm də iqtisadiyyatı sıfırdan qurulmalıdır. Ancaq aparılan proseslərin ardıcıl olması mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev müsahibəsində ardıcıllığın necə aparılacağını açıqlayaraq ilk növbədə ərazilərin minalardan təmizlənməli olduğunu bildirmişdir. Bunun böyük bir proses olduğunu vurğulayan ölkə başçısı əlavə etmişdir ki, ermənilər mina xəritələrini, mina sahələrinin xəritələrini Azərbaycana vermirlər və ona görə indi partlayışlar da tez-tez olur. Sonrakı prosesin ermənilərin vurduğu ziyanın qiymətləndirilməsidir. Prezident İlham Əliyev bir daha bəyan etmişdir ki, təzminat davasında uğur qazanmaq üçün ziyanın qiymətləndirilməsi vacibdir: "Ona görə ki, ilk növbədə, yerli qurumlar bütün dağılmış evlərin pasportlaşdırılması aparılmalıdır, video, foto çəkilişlər, dron çəkilişləri, protokollaşma - hər bir binanın, hər kənddə yerləşən binanın, hər şəhərdə yerləşən binanın öz pasportu olmalıdır. Bunu, bu məlumatı biz verəcəyik cəlb edilmiş beynəlxalq şirkətlərə, onlar özləri tədqiqat aparacaqlar, özləri monitorinq missiyaları həyata keçirəcəklər və onlar bizə Ermənistana qarşı açılacaq təzminat davasında kömək göstərəcəklər". Dövlət başçısı ardıcıllığın məhz bundan ibarət olduğunu qeyd edərək diqqətə çatdırmışdır ki, bu işlər görüləndən sonra infrastruktur layihələri icra ediləcəkdir. Prezident İlham Əliyev infrastuktur olmadan insanların azad edilmiş ərazilərdə yaşaya bilməyəcəklərini vurğulamış və bütün işlərin planlı şəkildə həyata keçirilməsinin vacib olduğunu demişdir.

Xatırladaq ki, 2021-ci il dövlət büdcəsi layihəsinin əsas sərvətlərindən biri cari ildə erməni işğalçılarına qarşı zəfər qazandığımız Vətən müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərin bərpası və yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün maliyyə təminatının yaradılmasıdır. Bunun həyata keçirilməsi üçün məqsədli vəsaitlər nəzərdə tutulmuşdur və xüsusi təyinatlı investisiyalar planlaşdırılır. Prezident İlham Əliyev bir neçə gün əvvəl yeni nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirini qəbul edərkən azad olunmuş ərazilərdə şəhər və kəndlərin necə qurulacağından danışmışdır. Dövlət başçısı həmin ərazilərin "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında bərpa edilməli olduğunu demiş və bununla bağlı yeni nazir Rəşad Nəbiyevə xüsusi tapşırıqlar vermişdi: "Bu işləri indidən planlaşdırın ki, şəhərsalma aparılarkən, layihələr icra edilərkən mütləq dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunsun. Ondan sonra və bəlkə də bununla paralel olaraq, bizim digər şəhər və kəndlərimizdə buna oxşar layihələri də icra etmək lazımdır. Çünki əgər biz bunu bu gün etməsək, sabah geri qalacağıq". Dövlət başçısı bu məqama toxunmuş və bununla bağlı göstəriş verdiyini, müvafiq dövlət qurumların elə-belə yox, planlı şəkildə fəaliyyət göstərdiklərini açıqlamışdır: "Ağıllı şəhər" konsepsiyası, "ağıllı kənd" konsepsiyası. Bu, zaman tələb edir. Eyni zamanda, hər şey planlı şəkildə olmalıdır. Yoxsa biri oradan duracaq deyəcək ki, mən burada bunu tikəcəyəm, biri oradan duracaq ki, mən bunu. Kimsən sən? Sən get öz işinlə məşğul ol. Yenə də deyirəm, ucuz populyarlıq dalınca qaçanların axırı pis olur, bir. İkincisi, qayda-qanun var ölkədə. Heç kim özbaşınalıq edə bilməz".

**Səbuhi MƏMMƏDOV,**
**"Xalq qəzeti"**